**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**EMİN ALTAY oğlu KƏRİMOV**

# “BÖYÜK ORTA ŞƏRQ LAYİHƏSİ”NDƏ İRAN AMİLİ

İxtisas: 5908.01 - Siyasi nəzəriyyə

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyasının

A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Politologiya və sosiologiya” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix üzrə elmlər doktoru, professor
**Həsən Cahangir oğlu Əlibəyli**

**Rəsmi opponentlər:** fəlsəfə üzrə elmlər doktoru
**Adil İsgəndər oğlu Əsədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Elşad Mirbəşir oğlu**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət İqtisad Universiteti**

Müdafiə «____»________ 2017-ci il tarixində saat____-da AMEA Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az -1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____»__________ 2017-cı ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**: **Sevinc Arif qızı Həsənova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 90-cı illəri beynəlxalq münasibətlər tarixinin spesifik dövrü hesab edilməklə bərabər, həm də siyasi proseslərin sürətli inkişafı ilə yadda qaldı. Belə ki, "soyuq müharibə"nin bitməsi ilə beynəlxalq münasibətlər tarixinin "Yalta - Potsdam sistemi" öz əhəmiyyətini itirmiş, yeni tipli təkqütblü dünya nizamı formalaşmağa başlamışdır. Doğrudur, bəzi neomarksistlərin (İmmanuil Vallerştayn) iddiasına görə "soyuq müharibə" heç də ABŞ-ın qələbəsi ilə bitməmişdir. Onlar bunu 1990-cı illərin ortalarında Şərqi Avropa və Post - Sovet ölkələrində kommunistlərin legitim şəkildə hakimiyyətə gəlməsi ilə izah edirdilər. Lakin 2000-ci illərdən sonra ABŞ rəsmiləri dünyada təkqütblü sistemin möhkəm əsaslara söykənməsi üçün konkret istiqamətlərdə fəaliyyətə keçdilər. Bu fəaliyyət ayrı - ayrı rəsmi sənədlərdə, hesabatlarda, elmi dərgilərdə və xüsusiylə hakimiyyətə yaxın təşkilatların müxtəlif rəsmi açıqlamalarında ümumi konsepsiya kimi təqdim edilmişdir. Belə ki, ABŞ siyasi elminin nüfuzlu nümayəndələrinin, məşhur politoloqların "Böyük Orta Şərq" kimi adlandırdıqları strategiya müasir beynəlxalq münasibətlərin inkişaf parametrlərini müəyyənləşdirən ən iri miqyaslı həbi – siyasi ekspansiya planıdır.

Məhz bu plan ABŞ-ın dünya dövlətlərinə münasibətini aydın göstərməklə, rəsmi Vaşinqtonun həm müttəfiqlərini, həm də rəqiblərini müəyyən edir. Doğrudur müasir siyasi proseslər olduqca dəyişkən olduğu üçün dünya dövlətlərinin mövqelərində də tez – tez dəyişikliklər müşahidə olunur. ABŞ-ın yeni strategiyasına uyğun neokolonializm siyasətinə qarşı region ölkələrinin münasibəti politologiya elmində maraq doğuran faktorlardandır. Region dövlətlərinin bir – birinə qarşı tutduqları mövqelər və bu şəraitdən rəsmi Vaşinqtonun müxtəlif üsullarla yararlanması siyasi elmdə aktual məsələlərdəndir.

Dissertasiyada Yaxın və Orta Şərq ölkələrinin ABŞ-a münasibəti və bu münasibətlər sisteminin siyasi, iqtisadi, sosial əsaslarının tədqiq olunması xüsusi aktuallıq kəsb edir. Xüsusiylə qeyd etmək lazımdır ki, Yaxın və Orta Şərqin ayrı - ayrı ölkələrinin "Böyük Orta Şərq" layihəsinə münasibəti kompleks formada təhlil edilmişdir. Belə ki, bu regionda baş verən hər bir ciddi hadisə ümumdünya əhəmiyyətli böhrana səbəb ola biləcək çəkiyə malikdir. Dünya neft ehtiyatının 3/1-nin və əsas dəniz boğazlarının bu regionda yerləşməsi bu ərazilərin geosiyasi əhəmiyyətini artırır. Regionda baş verə biləcək hadisələrin təsir imkanlarını qabaqcadan dəqiq ölçə bilmək üçün ciddi araşdırmalara ehtiyac vardır. Bu mənada Yaxın və Orta Şərqdə

mövcud olan əsas hərəkətverici qüvvələrin sosial - iqtisadi, ictimai – siyasi bazasının dissertasiya çərçivəsində tədqiq edilməsi elmi işin aktuallığından xəbər verir.

Nəhayət qeyd etmək lazımdır ki, ABŞ-ın Qafqazla, o cümlədən Azərbaycanla bağlı planlarının "Böyük Orta Şərq" layihəsində yer aldığını da nəzərə alsaq, dissertasiya işi elmi – siyasi əhəmiyyət kəsb edir. Tədqiqat işi hər şeydən qabaq Yaxın və Orta Şərqdə ABŞ üçün kabusa çevrilmiş bir dövlətin – İran İslam Respublikasının ABŞ-ın planlarındakı yerini müəyyənləşdirmək məqsədi daşıyır. Regionun ən ciddi fiquru səviyyəsinə çatmış İran özünün rıçaqları vasitəsiylə qonşu dövlətlərə təsir edir, onların ABŞ-la münasibətlərində gərginlik yaratmağa, vəziyyəti kəskin şəkildə rəsmi Tehranın xeyrinə dəyişməyə çalışır. İran özünün şiələr(cəfəri) üçün dini mərkəz olmasından yararlanaraq, digər ölkələrdəki şiələri (cəfəri) təşkilatlandırmaqla öz təhlükəsizliyini təmin etməyə çalışır. Belə ki, İraqda ABŞ üçün əsl baş ağrısı olan İran eyni zamanda Suriyada rəsmi Vaşinqtonun öz hədəflərinə çatmasına ciddi şəkildə mane oldu. Eyni zamanda Səudiyyə Ərəbistanının öz siyasi nüfuzunu Fars körfəzi rayonunda artırmaq cəhdlərinin qarşısını da məhz İran aldı. Həm Suriyada, həm də İraqda döyüşən tərəflərin İran, Səudiyyə Ərəbistanı, Türkiyə və ABŞ tərəfindən dəstəklənməsini nəzərə alaraq, siyasi proseslərin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirmək xüsusi əhəmiyyət kəsb edir. Adı çəkilən dövlətlərin mövqelərini formalaşdıran prinsipial parametr-ləri araşdırmaq baxımından – dissertasiya xüsusi aktuallığa malikdir.

İranın geoiqtisadi, geopolitik və konfessional əhəmiyyətini araşdırmaq-la, rəsmi Tehranın müxtəlif siyasi hadisələrə münasibətini qabaqcadan öyrənmək mümkündür. Belə ki, İran ərazisində tarix boyu mövcud olmuş bütün dövlətlərin xarici siyasətinin formalaşmasında İranın yerləşdiyi coğrafi ərazisi, relyefi əhəmiyyətli təsirə malik olmuşdur. Nəzərə alsaq ki, region ölkələrinin ciddi şəkildə ehtiyatlandığı İran siyasi hadisələrin axarını dəyişməkdə əhəmiyyətli təsirə malikdir, deməli onun siyasi qərarlarını da qabaqcadan proqnozlaşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Dissertasiyada İranın həm relyefi, həm ətraf ərazilərdəki fiziki – coğrafi hədlərinin araşdırılması prioritet məsələlərdəndir. Beləliklə dissetasiya işi özünün aktuallığını bir daha təsdiq etmiş olur.

İran İslam Respublikasının Azərbaycan Respublikası ilə tarixi - mədəni əlaqələrə malik olması, ölkəmizin güclü qonşusu olduğunu nəzərə alaraq, onun rəsmi Bakının xarici siyasətindəki yerini bilmək vacibdir. Belə ki, İranın ABŞ üçün "şər dövləti" olması, Azərbaycanın isə dünya bazarlarına öz korbohidrogen ehtiyatlarını çıxarmaqda rəsmi Vaşinqtondan həm siyasi,

həm də iqtisadi dəstək alması olduqca həssas vəziyyət yaratmış olur. Belə hallarda müxtəlif siyasi tədqiqat mərkəzlərində strateji qərarların və proqnozların verilməsi zamanı ciddi informasiya tələbatının ödənilməsini nəzərə alsaq, dissertasiya işi xüsusi aktuallığa malikdir.

İranın Qafqazla bağlı strateji məqsədlərinin formalaşmasına Tehranda fəaliyyət göstərən "Arran" mədəniyyət mərkəzi və "Qafqaz" tədqiqatlar mərkəzi tərəfindən hazırlanan hesabatlar xüsusi rola malikdir. Məhz bu hesabatların hansı ölçüdə təsir imkanlarına malik olması və bu məqsədlərin istiqamətini araşdırmaq dissertasiyanı aktuallaşdıran problemlərdəndir.

Nüvə enerjisi bəşəriyyətin elmi nailiyyətləri sırasında xüsusi əhəmiyyətə malikdir. Lakin bu enerjinin istilik – nüvə (termo – nuklear) silahı kimi istifadə edilməsi dünya ictimaiyyətini narahat edən ən vacib faktorlardandır. Məhz bu faktor dünya ölkələrini nüvə enerjisindən sülh məqsədləri üçün istifadə edərkən, maksimum həssaslıq nümayiş etdirməyə vadar edir. Çünki, nüvə enerjisinin əldə olunması elm tutumlu xüsusi infrastruktur yaradılmasını tələb edir. Bu infrastruktur isə öz növbəsində nüvə texnologiyası sahəsində fəaliyyətin genişləndirilməsini təmin edir. Bu fəaliyyətin genişləndirilməsi isə nüvə silahının istehsalı riskini yaradır. Nüvə enerjisindən istifadə etmək üçün bütün imkanlarını səfərbər etmiş, İran İslam Respublikası bütün dünya ictimaiyyətinin diqqətini öz üzərinə çəkmişdir. İİR-in rəsmi dairələri nüvə enerjisindən hərbi məqsədlər üçün istifadə etməyəcəyini rəsmi şəkildə bildirsələr də, bu məsələdə qaranlıq qalan məqamlar hələ də mövcuddur. İran İslam Respublikasının məhz Azərbaycan Respublikasının cənub qonşusu olması, rəsmi Tehranla münasibətlərin həssaslığı tədqiqat işinin aktuallığını şərtləndirən parametrlərdəndir.

**Problemin öyrənilmə səviyyəsi.** İlk öncə qeyd etmək lazımdır ki, dissertasiya işinin mövzusu ilə bağlı Azərbaycan dilində elmi tədqiqat işi olduqca az sayda mövcudur. Dissertasiyanın tədqiq etdiyi mövzu həm politologiya elmində, həm də beynəlxalq münasibətlər tarixində ən yeni istiqamət olduğu üçün hələ ki, əsasən Qərbi Avropa dillərində araşdırılır.
Bununla belə, ABŞ-ın "Böyük Orta Şərq" layihəsində İran faktoru ayrıca tədqiq edilməmişdir. Tədqiqatçıların böyük əksəriyyəti "Böyük Orta Şərq" layihəsini ümumi kantekstdə tədqiq etmiş, digər qismi ABŞ – İran münasibətlərindəki mürəkkəb prosesləri araşdırmış, hətta sırf İranın sosial – siyasi özünəməxsusluğunu və qanunauyğunluğunu tədqiqat işlərində işıqlandırmışlar.

Azərbaycanlı tədqiqatçılardan Əli Həsənovun İranın geosiyasi porterini təhlil etməsi xüsusi əhəmiyyətə malikdir.[1] Digər Azərbaycanlı tədqiqatçılardan H.C.Əlibəyli və S.Ə.Qurbanəlinin Azərbaycan Respublikasının İrandakı Səfirliyi tərəfindən 1994-cü ildə Tehranda çap olunmuş "Tarixin dörd günü"[2] tədqiqat işi İranın xarici siyasət sahəsində fəaliyyətinin qanunauyğunluqlarını aydınlaşdırmaqda kömək edir. Kitab ümummilli lider H.Əliyevin 1994-cü ildə İİR rəsmi səfrinə həsr olunub. Digər Azərbaycan tədqiqatçısı Həsən Hüseynov özünün "Şərq – Qərb münasibətlərində qloballaşma: ideya – siyasi mübarizə anlamında"[3] kitabında İslam dünyasında İranın mənəvi yerini dəqiqliklə göstərmiş, Qərb ölkələrinin müsəlmanlara qarşı qərəzli mövqeyinin köklərini araşdırmışdır. Kitab 2005-ci ildə Bakıda nəşr olunmuşdur. Azərbaycanlı tədqiqatçılardan Əli Həsənovun İranın geosiyasi porterini təhlil etməsi xüsusi əhəmiyyətə malikdir.

Türk tədqiqatçılarından S.Parların 2002-ci ilin mayında işıq üzü görmüş "Orta Şərq vəd edilmiş torpaqlar" ("Ortadoğu vaat edilmiş topraklar")[4] adlı tədqiqat işində ABŞ-ın "Böyük Orta Şərq" layihəsi müxtəlif prizmalardan tədqiq edilmişdir. Tükiyənin Milli İstihbarat Təşkilatının (MİT) əməkdaşı olmuş M.Kaynak özünün 2005-ci ilin martında nəşr olunmuş, "Böyük Orta Şərq layihəsi və Türkiyəyə dair strateji analizlər" ("Büyük ortadogu projesi ve Türkiye uzerine stratejik analizler")[5] kitabında Yaxın və Orta Şərqdə demokratiyanın yaşaya bilməməsinin əsas səbəblərini göstərmişdir.

Rusiya tədqiqatçılarının ümumi fikri bundan ibarətdir ki, ABŞ bütün hallarda İrana yalnız merkantil maraqlarından yanaşmışdır. Rus tədqiqatçılara görə rəsmi Vaşinqtonun təkrar – təkrar söylədiyi "demokratiya, insan hüquq və azadlıqları" və s. kimi ibarələr yalnız maskalanmaq üçün lazımdır. İran İslam İnqilabının baş verməsi və onun qələbə ilə başa çatmasının səbəbləri S.L.Aqayev tərəfindən

---

[1] Həsənov Ə. M. Geosiyasət. Dərslik. Bakı, "Aypara-3", 2010, 604 s.

[2] Əlibəyli H.C., Səfərli. Q.Ə. Tarixin dörd günü. Tehran: Azərbaycan Respublikasının İrandakı Səfirliyi, 1994, 166 s.

[3] Hüseynov H.B. Şərq – Qərb münasibətlərində qloballaşma: ideya – siyasi mübarizə anlamında. Bakı: Səda, 2008, 334 s.

[4] Parlar S. Ortadoğu vaat edilmiş topraklar. İstanbul: Yar yayınları, 2002, 97 s.

[5] Kaynak M. Büyük ortadoğu projesi ve Türkiye üzerine stratejik analizler, İstanbul: Truva yayınları, 2008, 224 s.

qələmə alınmış və 1984-cü ildə dərc edilmiş "İran: respublikanın doğulması" ("Иран: рождение республики")[1] kitabında geniş təhlil edilmişdir. M.S.İvanovun 1977-ci ildə Moskvada çap olunmuş "İran tarixi" ("История Ирана") [2] kitabında şah hakimiyyətini ABŞ-a yaxınlaşdıran, onu Amerikanın müttəfiqi olmasına gətirib çıxaran tarixi səbəblər araşdırılmışdır. Rus dilli müəlliflərdən Kriçenko V.P., Kurşakov V.Y., Yevseyev, Primakov Y.M. bu sahədə ciddi tədqiqatlar aparmışlar[3].

İngilis dilli tədqiqatçı "Stratfor" Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Corc Fridmanın 2009-cu ildə elə həmin mərkəzin rəsmi saytında yayımladığı "İran geopolitikası – bir dağ qalasınm mərkəzi" ("The Geopolitics of iran Holding the Center of a Mountain")[4] geniş elmi məqaləsində İranın nəinki, geopolitik üstünlükləri sadalanmış, hətta bu üstünlüklər tarixin dərin qatlarında baş vermiş hadisələrin məzmunu ilə uzlaşdırılmış və elmi dəlillərlə təhlil edilmişdir. Ingilis dilli müəlliflərdən daha sonra Bernard Levis, Zbiqnev Bzejinskinin adlarını çəkmək olar[5].

Alman dilli mənbələr arasında 2004-cü ildə Münhendə çap olunmuş "Yaxın Şərq münaqişəsi" ("Der Nahost Konflikt")[6] kitabı xüsusi əhəmiyyətə malikdir. Kitabın müəllifi M.Yohansen əsasən İranın Yaxın Şərq münaqişəsinə müdaxilə etməsinin obyektiv səbəblərini və İranın bu münaqişədə tərəf kimi çıxış etdiyi son onilliklərin siyasi dinamikasını araşdırmışdır. Digər alman dilli mənbə 2008-ci ildə Şvalbaxda (Schwalbach

---

1 Агаев С.Л. Иран: рождение республики. М.: Политиздат, 1984 год, 336 с.

2 Иванов М.С. История Ирана. М.: Издательство МГУ, 1977, 497 с.

3 Кириченко В. П. Йемен: факторы политической нестабильности //Азия и Африка сегодня. - 2013.- № 3.- с.57-61. Куршаков, В. Ю. Нефтяной фактор во внешней политике Ирана/Куршаков В. Ю. //Мировая экономика и международные отношения (МЭиМО). - 2013.-№ 3.- с.88-96. Евсеев В.В. Концепция «Большой Ближний Восток» под углом национально безопас - ности – 2013. № 4(27). - с. 620 – 628. Примаков Е.М. Конфиденциально: Ближний Восток на сцене и за кулисами (вторая половина XX – начало XXI века). Москва: Российская газета, 2006. — 384 с

4 Friedman G. The Geopolitics of Iran: Flolding the Center of a Mountain Fortress. Austin: Strategic Forecasting Inc., 2009, 10 p.

5 Zbignew Bzezhinski, The Grand Chessboard: Amerikan Primacy and Its Geo-strategic Imperatives- N 2006. Bernard Lewis.The Middle East: A Brief History of the Last 2,000 Years Reprint Edition. New-Jork 2002

6 Johannsen M. Der Nahost-Konflikt. Wiesbaden: Verlag für Sozialwissenschaften, 2011, 175 p.

std.) çap olunmuş "İsrail – Fələstin münaqişəsinin qısa tarixi" ("Kleine Geschichte des israelisch – palästinensischen Konflikts")[1] kitabıdır. Kitabın müəllifi J.Böhme bu münaqişədə İranın təsir rıçaqlarını araşdırmışdır.

**Tədqiqat işinin obyekti və predmeti.** Tədqiqat işinin obyektini ABŞ-ın ümumi strateji planları, o cümlədən "Böyük Orta Şərq" layihəsi və onun ümumi məqsədləri təşkil edir. Tədqiqatın predmetinə isə yuxarıda adı çəkilən strategiyanın İranla bağlı perspektivləri, İranın bu layihənin stabil həyata keçirilməsi üçün əhəmiyyətini artıran səbəblər və İranı ABŞ-ın nəzərində hədəf ölkə halına gətirib, çıxarmış faktorların şərhi daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir dünya siyasətinə istiqamət verən, siyasi iqlim yaradan ABŞ-ın imperialist dairələrinin strateji planlarında İranın yerini müəyyənləşdirməkdir. Daha doğrusu dissertasiya işinin məqsədi "Böyük Orta Şərq" layihəsinin hədəfləri arasında İran İslam Respublikasının yerini müəyyənləşdirmək və onun bu layihə üçün əhəmiyyətini araşdırmaqdır. Eyni zamanda İranın bu layihəyə münasibəti, reaksiyası və təsir rıçaqlarını tədqiq etmək də dissertasiyanın məqsədlərinə daxildir. Bu məqsədlərdən çıxış edərək, dissertasiyanın aşağıdakı vəzifələri müəyyən edilib:

— İranın geosiyasi, geoiqtisadi əhəmiyyətini müəyyənləşdirmək və regionda yerləşən digər ölkələrə təsir rıçaqlarım dəqiq müəyyənləşdirmək;

— İİR-in İslam dünyasında siyasi və konfessional nüfuzunun tarixi köklərini həm sosial – siyasi, həm də geokulturoloji kontekstdən öyrənmək;

— "Böyük Orta Şərq" layihəsində İranın açar ölkə olmasını müəyyən edən faktorları müəyyənləşdirmək və bu fakttorların ABŞ tərəfindən necə qiymətləndirildiyini müəyyən etmək;

— İranın adı çəkilən layihəyə münasibətini və bu münasibətin formalaşmasına təsir edən faktorları təhlil etmək;

— "Böyük Orta Şərq" layihəsinin reallaşmasına qarşı İranın atdığı addımları, fəaliyyət sferalarını, hərəkət istiqamətlərini və dominant olduğu sahələri dəqiqləşdirmək;

— "Böyük Orta Şərq" layihəsinin reallaşması istiqamətində İranın ələ alınması üçün ABŞ-ın atacağı addımların nəticələrini proqnozlaşdırmaq

— Yaxın və Orta Şərqdə İran – ABŞ qarşıdurmasından doğan dəyişiklikərin mahiyyətini təhlil etmək;

---

[1] Böhme J. Kleine Geschichte des israelisch – palästinensischen Konflikts. Schwalbach: Wochenschau Verlag, 2008, 144 p.

— Rəsmi Vaşinqtonun İranla yaxınlaşacağı təqdirdə, bunun sünni ərəb hakimiyyətlərinə necə təsir edəcəyini dəqiqləşdirmək

— "Böyük Orta Şərq" layihəsinə görə İranın siyasi coğrafiyasında nəzərdə tutulan dəyişiklikləri müəyyən etmək;

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Ümumiyyətlə tədqiqat işinin nəzəri əsasını ABŞ-ın ayrı – ayrı dövlət orqanlarının müxtəlif sənədləri, beynəlxalq münasibətlərə dair müxtəlif konsepsiyalar, geopolitik nəzəriyyələr, xüsusiylə əcnəbi politoloqların tədqiqat işləri və İranda dərc olunmuş rəsmi sənədlər, müxtəlif dini fətvalar (ayrı – ayrı Ayətullahlar tərəfindən verilmiş qərarlar) təşkil edir. Tədqiqat işində siyasi elmin müxtəlif metodlarından istifadə edilmişdir. İranın tarixi təcrübəsindən çıxış edərək, müasir xarici siyasətini proqnozlaşdırarkən tarixi – müqayisəli metoddan istifadə olunmuşdur. Ümumiyyətlə regionun bütövlükdə siyasi əhəmiyyətini öyrənmək üçün sistem metodu tətbiq edilmişdir. Struktur – funksional analizin köməyi ilə İran İslam Respublikasının siyasi siteminin malik olduğu mürəkkəb quruluşun hansı funksional səbəblərdən yarandığı araşdırılmışdır. Dissertasiyada həmçinin induktiv, deduktiv, kontent (məzmunun açılması) təhlil, abstraktlaşdırma, ümumiləşdirmə, analiz və sintez kimi ümumməntiqi metodlardan da istifadə edilmişdir.

**Tədqiqat işinin mənbə bazası.** Dissertasiya işinin mənbə bazasını aşağıdakı kimi qruplaşdırmaq olar:

— Rəsmi dövlət sənədləri - əsasən ABŞ-ın Yaxın və Orta Şərqlə bağlı strateji planlarının rəsmi sənədlərdə verilmiş cizgiləri, rəsmi Vaşinqtonun "Milli Təhlükəsizlik Strategiyası"[1] və onunla bağlı digər rəsmi sənədlər istifadə olunmuşdur.

— Memuar ədəbiyyatı – İnqilabdan əvvəl və XX əsrin 80-ci illərinin əvvəllərində İranda yaşamış xarici ölkə nümayəndələrinin, şahın yaxın ətrafının və İslam İnqilabının canlı şahidi olmuş dövlət və siyasi xadimlərin xatirələrindən istifadə edilmişdir.

— KİV - Avropa, Amerika, və Türkiyə KİV-lərinin mövzu ilə bağlı materiallarından, jurnalist araşdırmalarından istifadə olunmuşdur.

— İnternet resursları – Mövzuyla bağlı dünya internet saytlarında yerləşdirilmiş materiallardan, video yazılardan istifadə olunmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi.** Azərbaycan dilli ədəbiyyatda olduqca yeni olan "Böyük Orta Şərq" layihəsi hələ heç bir tədqiqatçı tərəfindən

[1] "The National Security Strategy of the United States of America". Washington D.C.: The White House, 2002, 35 p.

tədqiqat obyekti olmamışdır. Elmi yeniliyini aşağıdakı kimi xülasə etmək olar:

— Azərbacan dilli ədəbiyyatda "Böyük Orta Şərq" mövzusu ilk dəfə olduğu üçün ABŞ-ın regionla bağlı hədəfləri də dissertasiya səviyyəsində ilk dəfə olaraq təhlil edilir.

— Region dövlətlərinin "Böyük Orta Şərq layihəsi"nə münasibəti elmi - nəzəri şəkildə ilk dəfə təhlil edilmiş, bu reaksiyaların təbii səbəbləri obyektiv, bitərəf mövqedən araşdırılmışdır.

— İlk dəfə olaraq, İran İslam Respublikasının siyasi sisteminin məzmunu tarixi – konfessional səbəblərlə izah edilmiş, onun formalaşmasına təsir edən amillərin təhlili verilmişdir.

— İranın beynəlxalq münasibətlərdə əhəmiyyətini izah edərkən neft amilindən başqa, onun geosiyasi mövqeyi, geomorfoloji quruluşu, region ölkələrinə konfessional – siyasi təsir imkanları tədqiq edilmişdir.

— İranın Yaxın Şərq ölkələrinə qarşı mövcud radikal mövqeyi təkcə klerikal siyasi baxışlarla deyil, həm də tarixən formalaşmış, xroniki anti - ərəb mahiyyəti ilə də izah edilmişdir.

— İran İslam Respublikasının yarandığı ilk illərdə hökümət böhranlarının səbəb və mahiyyətinin beynəlxalq faktorlarla bağlı izahı ilk dəfə kompleks təhlil edilmişdir.

**Dissertasiyanın elmi – nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin materiallarından, aparılmış ümumiləşdirmələrdən müasir dövrdə ABŞ-ın geostrateji planları ilə bağlı tədqiqat işlərinin qələmə alınmasında istifadə edilə bilər. Tədqiqat işində əldə olunmuş elmi nəticələrdən ali məktəblər üçün dərslik və dərs vəsaitlərinin hazırlanmasında bəhrələnmək olar. Bundan əlavə praktik xarici siyasi və iqtisadi əlaqələrlə birbaşa məşğul olan dövlət orqanları bu dissertasiyanın təhlillərindən öz fəaliyyətlərində istifadə edə bilərlər. Xüsusiylə Yaxın və Orta Şərqin tarixində ABŞ-ın oynadığı rolun pərdə arxası nüansları tədqiqat işlərini hazır materiallarla təmin etmək baxmından ciddi əhəmiyyətə malikdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasında yerinə yetirilmişdir. Müəllifin dissertasiyanın mövzusuyla bağlı 9 elmi məqalə və konfrans materialı çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, yeddi (7) paraqrafı özündə birləşdirməklə üç (3) fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilməsi araşdırılmış, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Eləcə də tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, elmi yenilikləri verilmiş, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın I Fəsli "**"Böyük Orta Şərq Layihəsi" – ABŞ-ın geostrateji maraqları kontekstində**" adlanır. İlk fəslin 1-ci yarımfəsli "**"Böyük Orta Şərq Layihəsi"nin konseptual əsasları**" kimi qeyd edilmiş və ABŞ-ın bu layihəyə yaranmış ehtiyacının tarixi səbəbləri göstərilmişdir. Yarımfəslin əsasını "Böyük Orta Şərq Layihəsi"nin məzmunu və müxtəlif nəzəri əsasları təşkil edir. "Böyük Orta Şərq Layihəsi"nin əhatə etdiyi ərazidə Mavritaniya, Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir, İsrail, İordaniya, Livan, Suriya, Səudiyyə Ərəbistanı, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Bəhreyn, Küveyt, İraq, İran, Əfqanıstan, Pakistan və Türkiyə də daxil olmaqla 23 ölkə yerləşir[1]. Təməli Yeni Mühafizəkarlar (neokonservatorlar) tərəfindən qoyulmuş "Böyük Orta Şərq" adı ilə həm siyasi, həm də publisistik ədəbiyyatlarda özünə populyarlıq qazanmış layihənin meydana çıxmasına, tarixi proseslərin obyektiv inkişafı şərait yaratmışdır. "Böyük Orta Şərq Layihəsi" haqqında ilkin fikirlər yəhudi əsilli tarixçi Bernard Levisə aiddir[2]. Levis Amerikan administrasiyasında olan Yeni Mühafizəkarların (NeoCons) ən etbarlı məsləhətçisi olmuşdur. "Böyük Orta Şərq" layihəsi ABŞ-ın rəsmi sənədlərində bütöv göstərilməsə də, bu planın ayrı — ayrı hissələri ABŞ-ın rəsmi nümayəndələrinin və Mərkəzi Kəşfiyyat İdarəsi tabeliyində fəaliyyət göstərən beyin mərkəzlərinin hesabatlarında, bəyanatlarında və s. sənədlərdə verilmişdir[3]. "Demokratiya və insan hüquqlarının qorunması" şüarı ilə meydana atılmış bu planın əsasında daha konkret məqsədlər güdülür:

- Yaxın və Orta Şərqin neft və qaz mənbələrini tam nəzarət
- bu ölkələrin "liberal iqtisadiyyat"a (azad bazar) keçirilməsiylə, imperializmin bazarlarına çevrilməsi;
- regionda İsrailə qarşı münasibətin yumşaldılmasını təmin etmək;

---

[1] Direzinci A. 1990-2004 yillari arasında Türkiye ile Ortadoğu ülkelerinin ekonomik ilişkileri. Gaziantep: Gaziantep Üniversitesi basımı, 2005, səh.52.

[2] Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, səh.6

[3] Filiz Ş. İslam ve Felsefe. İstanbul: Say Yayınları, 2014, səh.91

— bununla da hər il İsrailin təhlükəsizliyinə ayrılan 2 milyard dollar yardım paketini digər sahələrə istiqamətləndirmək;

— İraq müharibəsindən sonra antiamerikan düşüncə tərzini "demokratiya" termini ilə neytrallaşdırmaq

— Fundamentalizm əleyhinə maarifçiliyə dəstək vermək.

Yaxın və Orta Şərqin siyasi xəritəsindəki dəyişiklikləri nəzərdə tutan təkliflər aşağıdakılardır:

— Bütün Ərəb Afrikası əhəmiyyətsiz milli sərhədlərlə parçalanacaq və böyük bir konfederasiyada birləşdirildikdən sonra siyasi baxımdan Orta Şərq Katibliyinə, iqtisadi baxımdan isə Orta Şərq İnkişaf Bankına tabe ediləcəkdir.

— Yeni yaradılacaq dövlətlər Azad Kürdüstan, Sünni İraqı, Şiə Ərəb dövləti, Müqəddəs İslam dövləti, Azad Bəlucistan dövlətləridir.

— İran öz ərazisinin böyük hissəsini Kürdüstan, Azərbaycan, Bəlucistan və Şiə Ərəb dövlətinin xeyrinə itirməlidir. Tükiyə Kürdüstanın xeyrinə, Səudiyyə Ərəbistanı isə Sünni İraq, Şiə Ərəb dövləti, Böyük İordaniya, Müqəddəs İslam dövləti və Yəmənin xeyrinə öz torpaqlarının bir hissəsindən əl çəkməlidir. İsrail isə 1967-ci ilə qədərki sərhədlərinə qaytarılacaqdır. Fələstin torpaqları isə beynəlxalq nəzarətə veriləcək.

**"Region dövlətlərinin "Böyük Orta Şərq Layihəsi"nə münasibəti"** adlanan ikinci yarımfəsildə nəzərdə tutulmuş region dövlətlərinin tarixi prosesdə formalaşmış siyasi dizaynı və cari layihəyə münasibətləri öz əksini tapmışdır. Regionun müxtəlif qədim, tarixi – mədəni inkişaf istiqamətləri İslamın yaranması ilə müştərək tarixdə birləşmişdir. XX əsrin əvvəllərində artıq İslam arealı ölkələri kapitalizmin imperializm mərhələsində geniş koloniyalara çevrilmişdi. Ərəb dövlətləri imperialistlər tərəfindən xətkeşlə çəkilmiş coğrafi sərhədlər daxilində yaradılmışdı. 1950 – 1960-cı illərdə ərəb ölkələrini "Bəəs" təfəkkürü və ərəb millətçiliyi bürüdü. Misirdə, Suriyada "Müsəlman qardaşları" ("İxvan əl Müslimin"), İraqda isə kürdlər və şiələr millətçilərə qarşı mübarizə aparırdılar [1]. Araşdırmalar nəticəsində region ölkələrinin bu layihəyə münasibətinin üç əsas variantının mövcud olduğu müəyyən edilmişdir:

1. Təklif edilmiş bu layihəni olduğu kimi, bütöv şəkildə, qəbul etmək

2. ABŞ-ın mövcud orijinal layihəsinə bəzi düzəlişlər etmək təklifi irəli sürmək və bu layihəyə adaptasiya olmaqla, həm də region ölkələrində uzun

---

[1] Primakov Y. Rusların Gözüyle Ortadoğu. İstanbul: Timaş yayınları,2009, səh.47.

illər mövcud olmuş, avtokratik siyasi rejimləri və mövcud siyasi sistemləri qoruyub, saxlamaq

3. "Böyük Orta Şərq" layihəsini birmənalı şəkildə rədd etmək[1].

ABŞ İslam sivilizasiyasının daxilində üç müxtəlif qrupla münasibət qurmalıdır: a) Diktatorlar; b) Sekulyar ziyalılar; c) İslamçılar. İslamçıların özləri də bölünürlər: a) Ənənəvi islamçılar; b) Mülayim, demokratik islamçılar; c) Radikal islamçılar.

ABŞ artıq bir neçə diktatoru devirməklə digərlərini iradəsinə tabe etdirə bilib. Lakin ümumiyyətlə bu layihədə ABŞ-ın müttəfiqi "mülayim islamçılardır". Türkiyə Respublikası birmənalı ABŞ-a dəstək verən ölkə kimi mülayim islamçılar tərəfindən idarə olunur. Səudiyyə ərəbistanı bu layihənin əleyhinə olsa da başqa yolu qalmadığı üçün ABŞ-la müttəfiqlik edir. Çünki Səud nəslindən olan kralları İran təcavüzündən ABŞ qoruyur. İran və Suriya isə ABŞ-ın mübarizə apardığı dövlətlərdir.lərdir. Bu layihənin reallaşmasına son ana qədər müqavimət göstərəcklərini bildirmişlər.

II Fəsil **"İran İslam Respublikası Yaxın və Orta Şərq regionunun aparıcı aktorlarından biri kimi" adlanır.** Fəslin ilk yarımfəsli **"İran İslam Respublikasının siyasi sisteminin spesifik xüsusiyyətləri"** adlanmaqla özündə İran İslam Respublikasının siyasi sisteminin formalaşmasını və siyasi fəlsəfəsinin tarixi təkamülünü özündə əks etdirir. İİR-in siyasi sistemi imami (cəfəri) şiələrinin dövlət fəlsəfəsinə söykənir. Bu siyasi fəlsəfə İslam peyğəmbəri və onun yaxın ətrafı haqqında rəvayətlərə əsaslanır[2]. Şiələrə görə Fatimənin (Məhəmmədin qız övladı) övladları xəlifəlik məqamına hamıdan daha çox layiqdirlər. Şiələrin öz siyasi mövqelərini əsaslandırmaq üçün gətirdikləri arqumentlər İslam peyğəmbərinin Əliyə olan münasibəti haqqında rəvayətlərə söykənir. İbn Əsakir, Cabir ibn Əbdullah Ənsaridən eşitdiyi bir hədisdə deyir: "Peyğəmbərin hüzurunda idik, elə bu vaxt Əli də gəldi. Peyğəmbər onu görcək buyurdu: "And olsun canım əlində olan Allaha! Bu kişi (Əlini işarə edərək) və onun davamçıları qiyamət günü nicat tapacaq şəxslərdir"[3]. Şiələrin arqumentləri İran mədəniyyətinin, geopolitik özünəməxsusluğunun və düşüncə tərzinin ifadəsi idi. Məhz İran — Sasani sivilizasiyasının ərəb — semit təfəkkürünə qarşı müqavimət reaksiyası, şiə dünya görüşünün yaranmasını şərtləndirirdi. Əlinin simasında obrazlaşdırılmış İran təəssübkeşliyi ərəb

---

[1] Evcioğlu K. ABD-nin Büyük Ortadoğu Projesi. Baykənt: Alfa-Kaos-Omeqa-Tapınak, 2005, səh.16.

[2] Filiz Ş. İslam ve Felsefe. İstanbul: Say Yayınları, 2014, səh.149.

[3] Yenə orada

təcavüzünə qarşı müqavimət və özünümüdafiə refleksindən doğmuş baxışlar məcmusu idi. Geopolitik müxtəlifliyin yaratdığı fərqli həyat tərzi konfessional qarşıdurmalarda da öz əksini tapmışdır. İmami (cəfəri) şiələr Əli ibn Əbu Talibin nəslindən 12 imam olduğuna inanan (onların başqa bir adı "İsna Əşərə" yəni "on iki") mötədil şiələrdir. İran İslam Respublikasının siyasi sistemi məhz imami (cəfəri) şiələrin siyasi təlimlərinə əsaslanır. Şiə baxışlarına görə bu 12 imamı peyğəmbər deyil, Allah özü hakimiyyətə təyin etmişdir. İmami şiələrə görə sonuncu – 12-ci imam Mehdinin dördüncü naibi Əli ibn Məhəmməd Səmurinin vəfatından sonra "qeybəti – kübra" dövrü başlandı. Bu qeyb dövrü İmamın zühuruna qədər davam edəcəkdir. bu dövrdə müsəlmanların bütün işləri "Vilayəti - Fəqih" adlandırılan cami - üş – şərait (bütün şərtlərə malik olan) müctəhidlərə tapşırılmışdır [1]. 1979-cu ildə qəbul edilmiş konstitusiyaya görə İran teokratik, unitar, İslam Republikasıdır[2]. İslam Şurası Məclisi (Məclise – Şuraye – İslami) – ümumxalq seçkiləri ilə dörd (4) il müddətinə seçilir. qanunlar yalnız Konstitusiyanı Müdafiə Şurasının (Şuraye – Negahban) təsdiqindən sonra qüvvəyə minə bilər. İİR siyasi sistemində bütün növ hakimiyyət qollarının çıxış nöqtəsini siyasi sistemin mərkəzində duran Ali Dini Rəhbər – "Vilayəte – Fəqih" təşkil edir. Məclise – Xubregan Ali dini Rəhbəri seçir və vəzifəsindən kənarlaşdıra bilir[3]. Buna baxmayaraq Rəhbər Məclise Xubregana nəzarət edir. Məcməye – Təşhise – Məsləhəte – Nizam Konstitusiyanı Müdafiə Şurası ilə İslam Şurası Məclisi (parlament) arasındakı anlaşılmazlıqları həll edir. Prezident Konstitusiyaya görə Rəhbərdən sonra ikinci ali vəzifəli şəxsdir. Dörd (4) il müddətinə, ümumi səsvermə yolu ilə və yalnız 2 dəfə seçilə bilər.

2-ci fəslin 2-ci yarımfəsli **"İran İslam Respublikasının "Böyük Orta Şərq Layihəsi"ndə yeri" adlanır.** İran bütün tarixi boyu öz geopolitik üstünlüklərindən yararlanaraq, regionda nüfuzlu siyasi təsisat yaratmışdır. İran Ön Asiyanın kəskin quru, yarımsəhra, subtropik ərazilərində yerləşir. Sahəsi 1.648.195 $km^2$ olan İran dünyanın 18-ci böyük ölkəsidir. İran əsasən dağlıq relyefdən ibarət olub, kəskin geosinklinal əraziyə malik ölkədir. İranın ən böyük dağları – Zaqros silsiləsi Ermənistan sərhədlərindən başlayıb, cənub – şərqə doğru, Hörmüz boğazındakı Bəndər – Abbas limanına qədər davam edir. Bu dağlıq ərazi farslarla Mesopo-

---

[1] Primakov Y. Rusların Gözüyle Ortadoğu. İstanbul: Timaş yayınları,2009, səh.119s.

[2] "İran İslam Respublikasının Konstitusiyası". Bakı: Beynəlxalq ALHODA nəşriyyatı, 2010, səh.11.

[3] Yenə orada

tamiya arasındakı tarixi – geomorfoloji sərhəddir[1]. Xəzərin cənubu ilə Əfqanıstana və Hindiquş dağlarına qədər uzanan digər dağ silsiləsi isə Elbrus dağlarıdır ki, bu da Türkmənistanın Qaraqum səhrasına qarşı İranı təbii şəkildə mühafizə edir. Hindquş dağlarından cənuba Pakistan sərhədləri boyunca alçalan dağlar Hind okeanına doğru təpəliklərlə əvəzlənir[2]. İranın məkəzində iki böyük səhra var ki, bu səhraların biri Qum şəhərindən başlayıb, Əfqan sərhədlərinə qədər davam edən Dəşti – Kəbir, digəri isə cənuba uzanan Dəşti – Lutdur. İran iqtisadiyyatının böyüklüyünə görə dünyanın 28-ci ölkəsi olsa da, bu ölkədə kəskin geosinklinal ərazilər sənayenin yayılmasını əngəlləyir[3]. Digər tərəfdən ölkə iqtisadiyyatının beynəlxalq aləmdən təcrid edilməsi, İrana tətbiq edilən embarqolar təsərrüfatın inkişafına durğunluq gətirir. İran neft ehtiyatına görə dünyada 4-cü yeri tutur[4]. Neft yataqlarının kəşfiyyat işini "İran Milli Neft Şirkəti" (Şerkəte Milliye Nəfte İran) aparır. İran təbii qaz ehtiyatına görə dünyada Rusiyadan sonra ikinci yeri tutur[5]. Dünya neft ixracatının 40%-dən də çoxu Hörmüz boğazından keçir[6]. ABŞ "Böyük Orta Şərq" layihəsini uğurla reallaşdırmaq üçün Yaxın və Orta Şərqin ürəyini təşkil edən Aralıq dənizi – Xəzər dənizi – Fars körfəzi üçbucağına sahib olmalıdır. Bu geopolitik üçbucaqda möhkəmlənmək üçün İranı ram etmək olduqca vacibdir. İranın bu üstünlüyü həm XX əsrin ikinci yarısında, həm də yaxın tariximizdə təcrübədə sübut edilmiş və qəbul edilәndir[7]. İranın ən birinci strateji vəzifəsi mövcud təbii sərhədlərini, geopolitik – qala strukturunu qoruyub saxlamaqdır[8] .Yaxın və Orta Şərqin ən mühüm geostrateji zonasında yerləşən İran Qərbin yeni imperializm modelinin hədəfindədir.

2-ci fəslin 3-cü yarımfəsli **"İran İslam Respublikasının xarici siyasətdə əsas prinsipləri və "Böyük Orta Şərq Layihəsi"nə münasibəti" adlanır.** İranın xarici siyasətinin prinsiplərini 1979-cu ildə qəbul edilmiş İİR Konstitusiyası və Xomeyninin siyasi baxışları müəyyənləşdirmişdir. Xomeyni 1979-cu il dekabrın 1-də ərəb ölkələrindəki şiələri

---

[1] Arı T. Orta Asya ve Kafkasya Rekabetten İşbirliğe. Bursa: MKM, 2010, səh.2
[2] Friedman G. The Geopolitics of Iran: Flolding the Center of a Mountain Fortress. Austin: Strategic Forecasting Inc., 2009, p.3
[3] Иванов М.С. История Ирана. М.: Издательство МГУ, 1977, с.253
[4] Dilek K. İranın Orta Asya Politikaları. Ankara: Tasarım-Basın, 2010, səh.46.
[5] Yenə orada
[6] https://www.youtube.eom/watch7vH:fC5cPCc_Qg
[7] Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, səh.19
[8] Yenə orda

nəzərdə tutaraq söyləmişdir: "müsəlman ölkələrində istismar edilən xalqlar öz idarəçilərinə güvənmədən, həqiqi İslam idarəsi üçün mübarizəyə qalxmalıdırlar"[1]. Sovetlər Birliyi dağıldıqdan sonra İran özünün xüsusi doktrinasını hazırlamaq üçün ölkənin Qum şəhərində dini mərkəz yaratdı. Bir qədər sonra paytaxt Tehranda Xarici İşlər Nazirliyinin tərkibində "İranın Qafqaz və Orta Asiya Araşdırmalar Mərkəzi" yarandı. İran bir çox tarixi, kultural, konfessional arqumentlərə söykənərək Cənubi Qafqazı öz nüfuz arelı kimi görür. Xüsusiylə "Qafqazda 17 şəhər" strateji baxışlar sistemi bir daha göstərir ki, rəsmi Tehran Cənubi Qafqazı İran sosiokultural arealının daxilində görür. "Qafqazda 17 şəhər" strategiyası İİR-in Cənubi Qafqazda dayaqlarını möhkəmləndirmək üçün mövcud potensialdan maksimum istifadə etməyi nəzərdə tutmuşdur. Bu potensial hər şeydən öncə Cənubi Qafqazın şiə (cəfəri) əhalisinin kompakt şəkildə məskunlaşdığı şəhərlər nəzərdə tutulur. Şiə əhalinin dəstəyini almaqla İİR-in nüfuzunu gücləndirmək "Qafqazda 17 şəhər" strategiyası adını almışdır[2]. Qərbin Zaqafqaziyada möhkəmlənməsinin qarşısını almaqda İranın ən yaxın müttəfiqi Rusiya Federasiyasıdır[3]. İİR Yaxın və Orta Şərqlə bağlı ABŞ-ın bütün planlarını inkar edir və rəsmi Vaşintonun ən yaxşı halda bərabərhüquqlu tərəfdaş kimi qəbul edilə biləcəyini bəyan edir. ABŞ-ın "Böyük Orta Şərq Layihəsi" İranın bir neçə hissəyə parçalanacağını nəzərdə tutur ki, bu da rəsmi Tehran tərəfindən şiddətli müqavimətlə rastlaşır. İran region ərazisində bütün yollarla təhlükəni özündən uzaqlaşdırmağa çalışır. ABŞ-ın heç bir provokasiyasına getməyən İran silahlı qarşıdurmanı sərhədlərindən kənarda saxlamağa çalışır. İran hökümətinin "Böyük Orta Şərq Layihəsi"nə münasibətini Ali dini Rəhbər Ayətullah Xamneyi 2013-cü ilin noyabrın 3-də Məşhəd şəhərində bir qrup məktəbli və tələbə ilə görüşü zamanı belə açıqlamışdı: "ABŞ-ın keçmişinə baxdıqda nüvə məsələsinin İran xalqı ilə düşmənçiliyi davam etdirmək üçün bəhanədən başqa bir şey olmadığı aydındır. Amerikalıların İranla düşmənçiliyinin səbəbi İran xalqının onların istəklərini rədd etməsi və ABŞ-ın ölkəmizə qarşı heç bir şey edə bilməyəcəyi qənaətində olmasına görədir. Amerikalılar yalnız o zaman düşmənçilikdən əl çəkəcəklər ki, İran

---

[1] Ali V. Devrim sonrası İran – ABD ilişkiləri. Ankara: Ankara Üniversitesi basımı, 2011, səh.26

[2] http://www.yeninefes.net/7pH3367

[3] Александр Д.Г. Ось Москва – Тегеран: реальности и возможности геополитики / Современный Иран. М.: Коровий вал, 2011, №2, с.169

xalqı təcrid olunmuş, etibarsız, hörmətsiz bir xalqa çevrilsin. İran hökuməti ABŞ-ın imperialist planlarının reallaşmasına heç vaxt imkan verməyəcəkdir".

III Fəsil **"İranın xarici siyasətinin nəzəri əsasları və prinsipləri"** adlanır. Fəslin birinci yarımfəsli **"İran - ABŞ münasibətlərinin əsas problemləri"** adlanmaqla İİR-in ABŞ-la münasibətlərində əsas predmeti və əlaqələrin mexanizmini aşkalamağa istiqamətlənmişdir. XX əsrdə İranın ABŞ-la münasibətləri iki mərhələyə ayrılır:

— 1979-cu il inqilabına qədər ABŞ-ın regiondakı müttəfiqi olan İran CENTO-nun ("Central Treaty Organization" - "Mərkəzi Müqavilə Təşkilatı") mərkəzi üzv – dövləti idi.

— 1979-cu il İran İslam İnqilabından sonra ABŞ-dan uzaqlaşmışdır.

1979-cu il inqilabından sonra İran CENTO-dan çıxdığını, ABŞ-la diplomatik əlaqələrin kəsildiyini, İslam dünyasının ABŞ imperializminə qarşı mübarizəyə başçılıq edəcəyini elan etdi. İslam İnqilabı hakimiyyət uğrunda daxili mübarizə fonunda İranın xarici sıyasətini formalaşdırırdı. Müvəqqəti hökumətə başçılıq edən Mehdi Bazarqan, liberal islahatlara və ABŞ-la bərabərhüquqlu əlaqələrə meyl etdi. Bu vəziyyət Xomeynini ciddi şəkildə narahat edirdi. Dini hisslərin coşmasından öz xeyrinə istifadə edən Xomeyni ruhanilərin mövqeyinin güclənməsinə çalışırdı. Tehranda "İmam xətti davamçıları – müsəlman tələbələr" təşkilatı ABŞ səfirliyinə basqın etdi. 53 nəfəri diplomat olmaqla 100 nəfər ABŞ vətəndaşı girov götürüldü. M.Bazargan dərhal ölkəyə qayıdıb, 1979-cu ilin noyabr ayının 6-da istehfa verdi. Ruhanilər İslam rejiminin iqtidarını gücləndirmək, üçün sosial problemlərdən diqqəti yayındırmaq məqsədiylə "düşmən" yaratmaq istiqamətində ABŞ-dan istifadə edirdilər. 1980-ci il aprelin 24-dən 25-nə keçən gecə ABŞ İrana qarşı hava desant əməliyyatı həyata keçirildi. Lakin əməliyyat təbii şərait ucbatından uğursuzluqla nəticələndi. Girov diplomatlar uzun danışıqlardan sonra vətənlərinə qaytarıldılar. Əvəzində isə ABŞ İranın bütün maliyyə vəsaitlərinə özünə qaytarmalı oldu. Girov diplomatlar azad edildikdən sonra Xomeyni bu dəfə ABŞ-a təsir vasitələrini Yaxın Şərqdə axtarmağa başladı. İran 1982-ci ildə "Hizbullah" və "İslami cihad" birliklərinin köməyi ilə ABŞ vətəndaşlarını girov götürməyə başladı. Girovlar müqabilində ABŞ İrana silah satışını təmin edəcəyini öhdəsinə götürdü. 1980-ci illərin ortaları ABŞ İsrailin "Kəşfiyyat və Xüsusi Tapşırıqlar Bürosu" ("Ha Mossad le Modiin ül Tafkidim Meyuhadim" qısaca "Mossad") tərəfindən yaxşı təşkil olunmuş bazarlıq nəticəsində İrana ciddi ölçüdə zenit kompleksləri verdi ki, bu da sonralar Səddama qarşı havadan effektiv müdafiə qurmaqda əhəmiyyətli rol oynadı. İranın yüksək

dairələri hər dövriyyədən 10% olmaqla yüksək qazanc əldə etdilər[1]. İran İslam Respublikasına qarşı tətbiq edilən hər cür sanksiya və embarqolar nəinki dini rejimi zəiflədir, əksinə xalqa üzərində daha çox nəzarət etməyə sövq edərək, daxili audotoriyanın dini hisslərindən bəhrələnib öz ətrafında birləşdirir. 2005-ci ildə prezident seçilmiş Mahmud Əhmədinejad H.Rəfsəncani və M.Xatəmiyə nisbətən daha radikal idi[2]. "Böyük Orta Şərq" layihəsində önəmli yeri olan İrana qarşı ABŞ-ın potensial variantları bunlardır: a) Diplomatik həll variantı; b) İrana qarşı iqtisadi embarqo c) İrandakı etnik qrupların. İran rejiminə qarşı istifadə edilməsi[3]. İrana qarşı tətbiq edilə bilən variantlardan biri də açıq hərbi müdaxilədir ki, bu da həm Yaxın və Orta Şərqi, həm də bütün dünvanı ağır vəziyyətə salacaqdır. Neft qiymətlərinin artması ilə dünya təsərrüfatı böhranla, durğunluqla və iflasla nəticələnəcəkdir. Bu da bütün dünyanın, eləcə də amerikan cəmiyyətinin Vaşinqton hökümətinə müxalifətdə yer alacağına səbəb olacaqdır[4].

III Fəsilin ikinci yarımfəsli **"İranın Avropa Birliyi və digər dünya dövlətləri ilə münasibətlərinə ABŞ-ın müdaxiləsi"** adlanır ki, bu da İİR-in real siyasi addımları və beynəlxalq arenada ABŞ-ın işğalçı hərəkətlərinə qarşı müqavimətini aydınlaşdırır. İran Qərblə münasibətləri e.ə. V əsrin ortalarına qədər gedib çıxır. Əhəmənilərin ("Haxa Manaş" və ya "Ahaman") sülaləsinin Yunanıstan ərazisində apardığı müharibələr Avropa ilə ilkin əlaqələrin yaranmasına səbəb oldu. Erkən orta əsrlərdə bu əlaqələri ciddi şəkildə zəiflətdi. XV əsrdə Ağqoyunluların Osmanlıya qarşı müttəfiq axtarmaq məqsədiylə Venesiya, Genuya, və ayrı – ayrı alman Königləri (knyaz) ilə apardığı danışıqlar, XVI əsrdə Səfəvilərin Portuqaliya, Şalke ilə yaxınlaşması Avropa – İran əlaqələrinin müasir təməllərini qoymuşdur[5]. XIX əsrdə İran tarixində ilk dəfə olaraq ABŞ missionerləri ilə əlaqə yaradıldı. Qacarların devrilib, modern, milli dövlətin yaradılması istiqamətində proseslər başladıqdan sonra İran aktiv aktora çevrildi. 1940-cı illərin ortaları ABŞ-ın İrandan İngiltərəni tam sıxışdırıb çıxardı. CENTO-nun üzvü olan İran ABŞ-la müttəfiqlik münasibətlərini davam etdirirdi.

---

[1] Ali V. Devrim sonrası İran – ABD ilişkiləri. Ankara: Ankara Üniversitesi basımı, 2011, səh.83.
[2] Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, səh.51
[3] Yenə orada
[4] Yenə orada
[5] Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq – Qərb, 2007, səh.123

Sosial – iqtisadi problemlərlə paralel ölkədəki şiə din xadimlərinin antişah və anti İsrail propoqandası güclənirdi. ABŞ-ın xüsusi xidmət orqanlarının SSRİ-yə başı qarışdığı bir vaxtda CENTO-nun düz mərkəzində nə Z.Bzejinskinin, nə də Dövlət Katibi Henri Kissencerin hesablaya bilmədikləri hadisə - İran İslam İnqilabı baş verdi. Yeni tipli İran – Qərb münasibətləri formalaşmağa başladı. Orta Şərqdə onsuz da tam nəzarəti ələ keçirə bilməyən ABŞ indi də Fars körfəzi rayonunda yeni problemlə üz – üzə qaldı. Xomeyni hakimiyyətin bütün səviyyələrində öz yaxınlarını yerləşdirdikdən sonra xarici ticarət əlaqələri Yaponiya, AFR, İngiltərə, İsveç, Fransa və Avstriya kimi dövlətlərə kurs götürdü. 1980-ci ildə İngiltərə ilə 971 mln., Yaponiya ilə isə 1,58 mln., dollar həcmində ticarət dövriyyəsi reallaşmışdı. 1982 – 1985-ci illərdə bu rəqəm 4 – 5 mln. dolara yüksəldi. Yaponiya İranın xarici ticarət partnyorları arasında birinci yeri tuturdu[1] . Xomeyni öldükdən sonra teokratik rejim yumşalmağa başladı. Xomeyninin ölümündən sonra İranda siyasi dəyişikliklərə cəhd edən Rəfsəncani 1989-cu il seçkilərindən sonra hakimiyyətə gəldi. Politoloqlar tərəfindən "texnokrat hökümət" adı ilə tanınan Rəfsəncani höküməti zamanında əldə edilmiş uğurlar tarixi faktlarda öz təsdiqini tapır. 1989-cu ildə Körfəz ölkələrinin Qətərdə keçirilmiş zirvə görüşündə İranın iştirakı və bu ölkələrlə yaxınlaşmaq məqsədiylə müqavilələrin imzalanması baş verdi. İran həm ərəb ölkələri, həm də Avropa dövlətləri ilə əlaqələri bərpa edə bildi. 1993-cü ildə Klintonun yeni embarqoları açıqlananda nə AB, nə Türkiyə, nə də Körfəz ərəbləri bu embarqolara ciddi yanaşmadılar. İran Avropa dövlətləri ilə münasibətləri nisbətən yaxşılaşdırmağa nail oldu. Dünya Bankı İİR-ə kreditlər ayırmağa başladı. 2000-ci ildə Xatəmi bildirdi ki: "İran bütün bu islahatları taktiki addım kimi deyil, həm milli, həm də beynəlxalq maraqların təhlükəsiz təminatı baxımından məqsədli şəkildə həyata keçirirdi". Lakin bütün bunlara baxmayaraq ABŞ beynəlxalq aləmdə İrana qarşı izolyasiya siyasətinə dəstək axtarır və bir çox hallarda dünya ölkələrini buna məcbur edir. Müasir dövrdə İranın uranı zənginləşdirməsi ətarafında gedən danışıqlar ABŞ-ın əlində bəhanədir. Bu yolla AB ölkələrini İrana qarşı səfərbər etməyə çalışan ABŞ İranı öz maraqlarına tabe etməyə çalışır. İran xalqı nüvə enerjisindən istifadə etmək və ondan yararlanmağı özünün təbii haqqı sayır. Qərb dövlətlərinin buna qarşı tutduqları mövqe İran daxilində bütün qüvvələri birləşdirən ciddi faktora

---

[1] Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, səh.69

çevrilir. Xamneyi ABŞ liderlərinin İran ilə razılıq əldə edəcəyi təqdirdə, sanksiyaların mərhələli şəkildə aradan qaldırılmasını qəbul etməyəcəklərini, bunun ABŞ-ın hiyləsi olacağını vurğulayıb: "Amerikalılar "Biz İranla müqavilə imzalayacağıq və onların hərəkətlərini müşahidə edəcəyik, daha sonra sanksiyaları ləğv edəcəyik", - deyirlər. Bu ABŞ-ın hiyləsidir. Biz bunu qəbul etməyəcəyik"

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın yekunu olaraq əldə edilmiş nəzəri-praktik əhəmiyyətli qənaətlər ümumiləşdirilmiş və tövsiyyələr irəli sürülmüşdür. Müəllif belə qənaətə gəlmişdir ki, Yaxın və Orta Şərq dövlətləri arasındakı münasibətlərin qabardılmaması üçün region ölkələri siyasi iradə nümayiş etdirməlidirlər. Çünki regiona olan xarici müdaxilə məhz bu konfliktlərin qabardılması ilə özünə münbit şərait tapır. ABŞ-ın "Böyük Orta Şərq layihəsi" özünün bir sıra nöqsanları ilə artıq Yaxın və Orta Şərq regionunda ciddi kataklizmlərə səbəb olmuşdur. İslam coğrafiyasının ümumi böhrandan xilas olması üçün region dövlətlərinin bu böhranı həll etmək məqsədiylə siyasi iradə nümayiş etdirmələri vacibdir. Müəllif bu sahədə öz tövsiyyələrini də nəticə hissəsində vermişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş elmi məqalələrində öz əksini tapmışdır:**


1. ABŞ-ın "Böyük Orta Şərq" layihəsindəki əsas istiqamətləri // Dirçəliş XXI əsr, 2012, №169/170, s. 224 – 231
2. İran Yaxın və Orta Şərqdə siyasi gündəmi müəyyənləşdirən beynəlxalq maraqların düyün nöqtəsi kimi // Tarix və onun problemləri, 2012, № 4, s. 157 – 162
3. İran islam Respublikasının siyasi sisteminin formalaşma mərhələləri // Elmi əsərlər, 2013, №2 (21) İSSN 2219 – 9810, s. 98 – 108
4. ABŞ-ın "Böyük Orta Şərq" layihəsinin əsas hədəfləri / Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. Bakı: Mütərcim, 2013, s.500 – 503
5. İran siyasi sisteminin formalaşmasının qısa tarixçəsi / Ümummilli liderimiz H.Ə.Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunur. Qloballaşma şəraitində sosial problemlərin həlli yolları. Gənc tədqiqatçıların respublika elmi – praktik konfransının materialları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2013, s.76 – 79
6. Иран как узел международных интересов на Ближнем и Среднем Востоке / Материалы III международной научно–

практической конференции. Проблемы соотношения и взаимодействия. Личност, общество, государство, право. Пенза: Социосфера, 2013, с.100–103

7. Перспективы Развития Политического Проекта США–Большой Ближний Восток // Вектор Науки. Серия: Экономика и управление. 2014, № 2 (17), с.13–15
8. İran İslam Respublikasının xarici siyasətində Avro – Atlantik dövlətlərin yeri // AMEA-nın Xəbərləri. Ictimai elmlər seriyası, 2015, №1, s. 233 – 242
9. İranın geopolitik mövqeyi və onun analizi // Tarix və onun problemləri. 2015, №1, s. 212 – 216
10. İranın nüvə sahəsində siyasi hədəflərindən güzəştə getməməsinin səbəbləri // Geostrategiya № 05 (29). Bakı 2015, s. 57 – 59
11. "Böyük Orta Şərq" layihəsinin reallaşması baxımından İranın əhəmiyyəti // Azərbaycan Milli Elmlər Akademiyası XƏBƏRLƏRİ İctimai elmlər seriyası №4. Bakı 2015, s. 117 – 124
12. ABŞ-ın geostrateji planlarında İranın yeri / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər, milli təhlükəsizlik, geoiqtisadiyyat və geosiyasətin fundamental problemləri**.** Bakı: Bakı Universiteti nəşriyyatı – 2015, s. 649 – 655
13. Noliberal koloniyalizmin Yaxın Şərqdə xarakterik əlamətləri // Sivilizasiya 3/27. Bakı 2016, s. 155 – 159
14. ABŞ-ın Yaxın Şərqdə apardığı neoliberal xarici siyasətin mahiyyəti // Geostrategiya № 04 (34). Bakı 2016, s. 57 – 59
15. ABŞ-ın Yaxın və Orta Şərq siyasətində NATO-nun öhdəlikləri / NATO-nun 2016-cı il Varşava sammiti: imkanlar və gözləntilər Tezislər toplusu. Bakı – 2016, s. 82 – 85
16. ABŞ-ın Yaxın və Orta Şərqdə əsas prioritetləri / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Sosial Elmlər və Psixologiya fakültəsi Ümummilli liderimiz H.Ə.Əliyevin Anadan olmasının 93-cü ildönümünə həsr olunur. Elm və təhsilin inkişafı strategiyası. Qloballaşma şəraitində sosial problemlərin həlli yolları. Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları. Bakı – 2016, s.134 – 137
17. ABŞ-ın İslam ölkələri üçün nəzərdə tutduğu liberallaşma strategiyasının məhdud tərəfləri / Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İrarəçilik Akademiyası "Heydər Əliyev

ideyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir" mövzusunda doktorant və dissertantların elmi-praktik konfransının materialları. Bakı – 2016, Səh.119 – 126

**ЭМИН АЛТАЙ оглы КЕРИМОВ**

# ИРАНСКИЙ ФАКТОР В ПРОЕКТЕ «БОЛЬШОЙ БЛИЖНИЙ ВОСТОК»

## РЕЗЮМЕ

В диссертации впервые в отечественной политической литературе в комплексном взаимосвязывающем плане исследован проект «Большой Ближний Восток».

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **введении** обоснованы актуальность, источниковая база проблемы. Во введении также определены цель и задачи исследования, указаны ее научная новизна, теоретическое и практическое значение.

**Первая глава** диссертации под названием «Проект «Большой Ближний Восток» в контексте геостратегических интересов США» состоит из двух параграфов. В главе расматривается суть и содержание проекта «Большой Ближний Восток» США, и были проанализированы приоритеты цели проекта по отношению к исламскому миру. В том числе, в главе изучается отношение стран региона к стратегическому плану США.

**Вторая глава** называется «Исламская Республика Иран в качестве одного из ведущих акторов на Ближнем Востоке» и состоит из трех параграфов. В главе анализируются события, происходящие в процессе формирования политической системы Исламской Республики Иран после Исламской Революции, в том числе, в этой главе рассматриваются геополитическое значение и влияние Ирана на страны региона, а также отношение Ирана к проекту «Большой Ближний Восток» США.

**Третья глава** под названием «Теоретические основы и принципы внешней политики Ирана» состоит из двух параграфов. В главе рассматриваются характерные черты отношений между США и Ираном, а также между Ираном и европейскими странами. В главе также рассматриваются вопросы вмешательства США в отношения между Ираном и странами Европы.

В разделе «заключения» обобщаются основные положения диссертации, подводится итог исследования.

**EMIN ALTAY oglu KARIMOV**

## IRANIAN FACTOR IN THE "GREAT MIDDLE EAST PROJECT"


## ABSTRACT

"Great Middle East Project" has been investigated in the thesis for the first time in the history of the country.

The dissertation consists of the Introduction, 3 Chapters, the Conclusion and the list of the literature.

In the **introduction**, the topicality of the theme, the state of studying of the problem are investigated, and the summary of the source and the theoretical and methodological framework is grounded. Additionally, in the introduction the goals and objectives of the research are defined, as well as the scientific innovations are given, and the theoretical and practical importance is provided.

**The headline of the first chapter** of the dissertation is "Great Middle East Project" in the context of US geostrategic interests". In the chapter, the essence and content of the project "The Great Middle East" of the United States are studied, and the priorities of the goal of the project regarding the Islamic world are analyzed.

**The second chapter** is entitled "The Islamic Republic of Iran as one of the leading actors in the Middle East" and, consists of three paragraphs. Events are analyzed which took place in the formation of the political system of the Islamic Republic of Iran after the Islamic Revolution, including, examined the geopolitical significance and influence of Iran to the countries of the region, as well as the attitude of İran to the Great Middle East project, also to the United States.

**The third chapter** is titled as "Theoretical foundations and principles of foreign policy of Iran", and is looked over at the characteristic features of the relationship between the US and Iran, as well as, Iran and European countries. Moreover, there is a discussion about US intervention to the relations between Iran and European countries.

In the **"Conclusion"** part of the dissertation, the main thesis of the research is generalized and studied investigations are summarized.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**ЭМИН АЛТАЙ оглы КЕРИМОВ**

# ИРАНСКИЙ ФАКТОР В ПРОЕКТЕ «БОЛЬШОЙ БЛИЖНИЙ ВОСТОК»

Специальность: 5908.01-теория политики

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ – 2017**